# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**“RƏNGKARLIQ-3”**

## İŞÇİ TƏDRIS PROQRAMI

**(Sillabus)**

**I.**

**Əsas dərslik və dərs vəsaitləri**


1. Ж.Агастон «Теория цвета и применен ие в искусстве и дизайне» Москва, 1982
2. 1. Ə.Verdiyev "Rəngkarlıq" Bakı, 1985
3. Волков Н.Н. «Цвет в живописи», М.: Искусство,1985.
4. Зайцев А. «Наука о цвете и живописи». М.: Искусство, 1986.
5. Ə.Verdiyev. "Dəzgah rəngkarlığı". "İşıq" nəşriyyatı, Bakı, 1988.
6. Ə.Verdiyev. "Dəzgah rəngkarlığı". "İşıq" nəşriyyatı, Bakı, 1988.
7. Киплик Д.И. «Техника живописи», ЗАО Сварок и К, 2000.
8. Иттен Й. «Искусство цвета», М.: Д.Аронов, 2000
9. Паранюшкин Р.В. Композиция. Серия «Школа изобразительных искусств», Р./Д,:Феникс, 2001.
10. Паранюшкин Р.В. Техника рисунка. Учебное пособие для худ.специальностей. Р./Д.,Феникс, 2002.
11. B.Qasımxanlı "Koloristika" Bakı, 2009
12. С.А. Прохоров, А.В. Шадурин «Живопись для архитекторов и дизайнеров», Б., 2010
13. http://www.letopis.info/themes/painting/tehniki_jivopisi.html
14. http://artss.net.ru/uroki-zhivopis/texniki_zhivpisi_maslom
15. http://www.art-spb.ru/artspb137.html


Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**Fənnin təsviri**

Bu fənn, ümumi (məcburi) fənnlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrdə gələcək peşəkar dizayner yaradıcılıqları zamanı onlara lazım olan zəruri baza biliklərini təqdim edir, habelə onlara təsviri sənət obyektlərinin müxtəlif rəngkarlıq vasitə və üslubları ilə verilməsi, ümumi qanunları öyrədilir, eləcə də rəngkarlıq sahəsində bilik və bacarıqlar aşılanır.

Dərslərdə verilən tapşırıqların yerinə yetirilməsi mühazirə dərslərində tədqiq olunan tədris materialların möhkəmləndirilməsinə və tələbələrin bacarıqlarını artırmağa imkan yaradır. "Rəngkarlıq-3" fənninin tədrisi prosesində tələbələr kurs nəticəsində əldə olunan bilikləri ümumiləşdirərək və dərinləşdirərək rəngkarlıq texnikasına yiyələnir, faktiki materialı müşahidə edərkən sərbəst nəticələr çıxartmağı bacarır, rəngkarlıq, rəsm, kompozisiya, koloristika üzrə praktik işlərinin yerinə yetirilməsi ardıcıllığının strukturunu öyrənirlər.

**Fənnin məqsədi və vəzifələri**

"Rəngkarlıq-3" tədris kursu bədii təfəkkürün, yaradıcı təxəyyülün, koloristik səriştə və bacarıqların inkişaf etdirilməsinə yönəlib. Hazırki kursun məqsədi rəngkarlığın köməyi ilə gələcək mütəxəssisdə bədii zövqü formalaşdırmaq və inkişaf etdirmək, tələbələrə təsviri və rəng savadının əsasını öyrətmək, təsviri sənətin əsas qanun və kateqoriyalarının qavranılması, müxtəlif rəngkarlıq texnikaları və materialları ilə tanış etmək və yüksək səviyyəli mütəxəssisin kompleks hazırlığında dizayn sahəsində biliklər aşılamaqdır.

Beləliklə, praktiki məşğələlərin məqsədi "Rəngkarlıq" fənninin öyrənilməsindən sonra tələbələrin naturadan çəkmə vərdişlərinə, rəngkarlığın müxtəlif texnikalarına yiyələnməsidir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Rəng harmoniyası qanunlarının əsasında qurulmuş dizayn eskizlərini sərbəst yerinə yetirilməsi üçün zəruri olan bilik, bacarıq və vərdişlərin əldə edilməsi;
- Rəngkarlıq vasitələri ilə həcmi formanın realistik təsviri metod və prinsiplərinin öyrənilməsi;
- Bədii materiallar və alətlər ilə iş priyomların öyrənilməsi;
- Eskizlərin işlənməsində və obyektlərin təsvirində istifadə olunan rəng uyğunluqlarının və rənglərin harmonizasiya metodlarının öyrənilməsi;
- Təsvirin əsas qanun və qaydaları haqda biliklərin əldə edilməsi;
- Tapşırıqlar üzərində praktiki işin və yerinə yetirilməsinin ardıcıllığı metodlarının əldə edilməsi;
- Professional həcmi-fəza və bədii-obraz təfəkkürünün işıqlandırılması;
- Eskiz və dizayn axtarışların individual rəngkarlıq texnikasında yerinə yetirilməsi;
- Təxəyyül, müşahidə qabiliyyətinin, görmə yaddaşının öyrənilməsi;
- Natura və ətraf mühitdə təsvir nöqteyi nəzərdən maraqlı olan mövzü və süjetləri görmək qabiliyyətinin aşılanması ;
- Rəng xüsusiyyətlərini nəzərə alaraq predmeti təsvir etmə bacarığının formalaşması;
- Tələbələrin dizayn sahəsində bacarıqlı və savadlı mütəxəssis kimi yetişdirməsi.

**Fənnin tədris metodologiyası**

Qarşıya qoyulmuş məqsəd və nailiyyətləri əldə etmək üçün aşağıdakı tədris metodologiyasından istifadə olunur:

- *Şifahi (mühazirə, təqdimat, müzakirə);*
- *Əyani (video fayllar,reproduksiyalar, kitablar );*
- *Təcrübi;*
- *Emosional (müxtəlif assosiasiyaların, bədii obrazların təhlili).*

Bu fənnin tədrisi prosesində məşğələ dərsləri zamanı, xüsusi rəngkarlıq nümunələrinin öyrənilməsi, struktur və koloristik təhlili, nəhayət təsviri, tədris prosesində təqdimatın hazırlanması, sərbəst işlərin, ev tapşırıqlarının ( sketç-nabroskaların) yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş təsvir materialları ilə tanış olmalıdırlar.

**Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- təsviri incəsənətin və yaradıcılığın nəzəri əsaslarını;
- rəngkarlıq əsərinin məqsəd və vəzifələrini, əsas qanunlarını, ifadəli vasitələrini;
- rəngkarlıqda təşkilediciliyinin əsas prinsiplərini;
- rənglərin kolristik xüsusiyyətlərini və rəng harmoniyaların yaradılması variantlarını;

- dizaynerə zəruri olan nəzəri biliklərə və praktiki bacarıqlara yiyələnməlidir;

**Bacarmalıdırlar**:

- Dekorativ rəngkarlıq üslubunda klassik və müasir yaradıcılıq prinsipləri haqqında biliklərə sahib olmalıdır;
- Dekorativ yaradıcılığın müxtəlif formalarında işləyə bilməli;
- Konkret tədris tapşırıqlarına uyğun müxtəlif rəngkarlıq kompozisiyalar yaratmalı, dizaynın müxtəlif növlərinin əsərlərini təhlil etməlidir.
- Tapşırıqları yerinə yetirərkən həyat müşahidəçiliyi və fantaziyanı aktivləşdirməyi;
- Kompozisiya qanunlarını nəzərə almaq şərtilə, eləcə də, mü.ahidə vasitəsilə rəngkarlıq əsərini tərtib etməyi;
- Harmonik rəng qammasını seçməyi;
- Rəngkarlıq əsərinin təsviri dil üsullarını;
- Koloristik üsulları;
- Müxtəlif materialda işlərin yerinə yetirilməsi üsularını.

Eləcə də,

- bədii fikrin praktiki fəaliyyətdə reallaşdırma təcrübəsinə malik olmalı, müxtəlif mürəkkəblikdə olan natürmort, mənzərə və tematik tablo nümunəsində harmonik kompozisiya yaratma vərdişlərinə, dizayn sənəti sahəsində elmi-tədqiqat bacarıqlarına yiyələnməlidir.

**Prerekvizitlər**

Yoxdur.

**Fənnin mühazirə mövzuları**

Tədris planına əsasən fənn yalnız məşğələ saatlarından ibarət olduğu üçün mühazirə mövzuları yoxdur.

**Fənnin məşğələ mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı məşğələ mövzuları təqdim ediləcək:

16. Yay təəssüratına aid yaddaşdan mənzərə rəsmi. **1-ci mərhələ**
17. Yay təəssüratına aid yaddaşdan mənzərə rəsmi. **2-ci mərhələ**
18. Akvarellə kiçik natürmort rəsmi. **1-ci mərhələ**
19. Akvarellə kiçik natürmort rəsmi. **2-ci mərhələ**
20. Natürmortun azmüddətli rəsmi.
21. Parça rəsmi (drapirovka) akvarellə. **1-ci mərhələ**
22. Parça rəsmi (drapirovka) akvarellə. **2-ci mərhələ**
23. Güllərin rəsmi. **1-ci mərhələ**
24. Güllərin rəsmi. **2-ci mərhələ**
25. Güllərin dekorativ həlli. **1-ci mərhələ**
26. Güllərin dekorativ həlli. **2-ci mərhələ**
27. Mis qablar və güldan rəsmi. **1-ci mərhələ**
28. Mis qablar və güldan rəsmi. **2-ci mərhələ**
29. Yaddaşdan mənzərə rəsminin çəkilməsi.
30. Keramikaya aid friz-naxışların çəkilməsi. **1-ci mərhələ**
31. Keramikaya aid friz-naxışların çəkilməsi. **2-ci mərhələ**
32. Həndəsi naxış rəsmi. Qarışıq texnika
33. Nəbati naxış rəsmi. Qarışıq texnika

34. Naturadan natürmort rəsmi. **1-ci mərhələ**
35. Naturadan natürmort rəsmi. **2-ci mərhələ**
36. İnteryer və eksteryer eskizlərinin rəsmi. Qarışıq texnika. **1-ci mərhələ**
37. İnteryer və eksteryer eskizlərinin rəsmi. Qarışıq texnika. **2-ci mərhələ**
38. Dekorativ ağac və güllərin kompozisiyası. **1-ci mərhələ**
39. Dekorativ ağac və güllərin kompozisiyası. **2-ci mərhələ**
40. Dinamik, hərəkətli kompozisiya rəsmi. **1-ci mərhələ**
41. Dinamik, hərəkətli kompozisiya rəsmi. **2-ci mərhələ**
42. Akvarellə nəbati naxışlardan ibarət kompozisiya
43. Dekorativ kompozisiya (soyuq qamma)
44. Dekorativ kompozisiya (isti qamma)
45. Görülmüş işlərə baxış. Yekun

**Fənnin məşğələ mətnləri**

Fənnin bütün mövzuları üzrə müxtəlif növ məşğələ materialları elektron formatda elektron kabinetdə yerləşdirilir.

**Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1** | Yay təəssüratına aid yaddaşdan mənzərə rəsmi. **1-ci mərhələ** | Rəsmin çəkilməsi üçün mənzərənin seçilməsi. Mənzərə tablosunun çəkilməsi. Rəng palitrasının müəyyən edilməsi. Əsas rəng çalarlarının verilməsi. Təbiət formalarının rəng vasitəsilə modelləşdirilməsi. Mənzərə üzərində işlərin tamamlanması | 7 |
| **2** | Yay təəssüratına aid yaddaşdan mənzərə rəsmi. **2-ci mərhələ** | Rəsmin çəkilməsi üçün mənzərənin seçilməsi. Mənzərə tablosunun çəkilməsi. Rəng palitrasının müəyyən edilməsi. Əsas rəng çalarlarının verilməsi. Təbiət formalarının rəng vasitəsilə modelləşdirilməsi. Mənzərə üzərində işlərin tamamlanması | 11 |
| **3** | Akvarellə kiçik natürmort rəsmi. **1-ci mərhələ** | Natürmortun vərəqdə əsas və köməkçi xətlərlə qeyd edilməsi. Rəng palitrasının müəyyənləşdirilməsi. Əsas rəng tonlarının müəyyən ediməsi. Şəxsi və düşən kölgələrin verilməsi. Natürmortun elementlərinin rəng tonu ilə modelləşdirilməsi. Natürmortun son mərhələsinin yerinə yetirilməsi | 1 |
| **4** | Akvarellə kiçik natürmort rəsmi. **2-ci mərhələ** | Natürmortun vərəqdə əsas və köməkçi xətlərlə qeyd edilməsi. Rəng palitrasının müəyyənləşdirilməsi. Əsas rəng tonlarının | 1,5 |

| | | | |
|---|---|---|---|
| | | müəyyən ediməsi. Şəxsi və düşən kölgələrin verilməsi. Natürmortun elementlərinin rəng tonu ilə modelləşdirilməsi. Natürmortun son mərhələsinin yerinə yetirilməsi | |
| **5** | Natürmortun azmüddətli rəsmi | Natürmortun vərəqdə kompanovkası. Proporsiyaların ölçülməsi. Natürmortun konstruktiv xətlərlə qurulması. Rəng çalarlarının müəyyən edilməsi. Tablonun işlənməsi üçün xromatik və axromatik rənglərin seçilməsi. Kölgələrin verilməsi. Natürmorta daxil olan predmetlərin formasının rəng və işıq-kölgə ilə işlənilməsi | 6 |
| **6** | Parça rəsmi (drapirovka) akvarellə. **1-ci mərhələ** | Drapirovkanın vərəq üzərində qeyd olunması. Drapirovkanın rəng palitrasının təyin edilməsi. Drapirovkanın fakturasının akvarellə işlənilməsi. Parçanın ornamental quruluşunun dəqiqləşdirilməsi. Kölgə ardıcıllığının verilməsi. Drapirovkanın tamamlanma işləri | 9, 13 |
| **7** | Parça rəsmi (drapirovka) akvarellə. **2-ci mərhələ** | Drapirovkanın vərəq üzərində qeyd olunması. Drapirovkanın rəng palitrasının təyin edilməsi. Drapirovkanın fakturasının akvarellə işlənilməsi. Parçanın ornamental quruluşunun dəqiqləşdirilməsi. Kölgə ardıcıllığının verilməsi. Drapirovkanın tamamlanma işləri | 9,13 |
| **8** | Güllərin rəsmi. **1-ci mərhələ** | Güllərdən ibarət kompozisiyanın kağız üzərində rəsmi. Proporsiyaların ölçülməsi. Rəng palitrasının əvvəlcədən seçilməsi. Əsas rəng tonlarının verilməsi, şəxsi və düşən kölgələrin verilməsi. Güllərin formasının rəng ilə tam işlənilməsi. Kompozisiyanın tamamlanması | 12 |
| **9** | Güllərin rəsmi. **2-ci mərhələ** | Güllərdən ibarət kompozisiyanın kağız üzərində rəsmi. Proporsiyaların ölçülməsi. Rəng palitrasının əvvəlcədən seçilməsi. Əsas rəng tonlarının verilməsi, şəxsi və düşən kölgələrin verilməsi. Güllərin formasının rəng ilə tam işlənilməsi. Kompozisiyanın tamamlanması | 3 |
| **10** | Güllərin dekorativ həlli. **1-ci mərhələ** | Güllərdən ibarət hazır kompozisiyanın surətinin konturlarının vərəqə köçürülməsi, kagız üzərində yerləşdirilməsi və qurulması. Kompozisiyanın müəyyən üslubda stilizasiyası və uygun rəng tonlarının | 4 |

| | | | |
|---|---|---|---|
| | | seçilməsi. Rəng ləkələrinin ritmik yerləşdirilməsi. Güllərdən ibarət dekorativ natürmortun və ya kompozisiyasının detallarının ahəngdar rənglərlə işlənilməsi. Natürmortun ümumiləşdirilməsi | |
| **11** | Güllərin dekorativ həlli. **2-ci mərhələ** | Güllərdən ibarət hazır kompozisiyanın surətinin konturlarının vərəqə köçürülməsi, kagız üzərində yerləşdirilməsi və qurulması. Kompozisiyanın müəyyən üslubda stilizasiyası və uygun rəng tonlarının seçilməsi. Rəng ləkələrinin ritmik yerləşdirilməsi. Güllərdən ibarət dekorativ natürmortun və ya kompozisiyasının detallarının ahəngdar rənglərlə işlənilməsi. Natürmortun ümumiləşdirilməsi. | 8 |
| **12** | Mis qablar və güldan rəsmi. **1-ci mərhələ** | Mis qablar və güldandan ibarət natürmortun vərəq üzərində kompanovkası və ümumiləşdirilmiş rəsmi. Natürmorta uyğun rənglərin müəyyənləşdirilməsi. Natürmortun elementlərinin formasının rəng ilə modelləşdirilməsi. Kölgələrin verilməsi. Natürmortun tamamlanması | 4 |
| **13** | Mis qablar və güldan rəsmi. **2-ci mərhələ** | Mis qablar və güldandan ibarət natürmortun vərəq üzərində kompanovkası və ümumiləşdirilmiş rəsmi. Natürmorta uyğun rənglərin müəyyənləşdirilməsi. Natürmortun elementlərinin formasının rəng ilə modelləşdirilməsi. Kölgələrin verilməsi. Natürmortun tamamlanması | 5 |
| **14-** | Yaddaşdan mənzərə rəsminin çəkilməsi. | Rəsmin çəkilməsi üçün mənzərənin seçilməsi. Mənzərənin kağız üzərində karandaşla rəsmi. Lazımi rəng tonlarının müəyyən edilməsi və təbiət formalarının modelləşdirilməsi. Mənzərə üzərində işlərin tamamlanması | 8 |
| **15** | Keramikaya aid friz-naxışların çəkilməsi. **1-ci mərhələ** | Keramika üzərində friz-naxışın surətinin kağız üzərində çəkilməsi. Xarakterik rəng çalarlarının müəyyənləşdirilməsi. İşıq-kölgə gözləməklə rəng ləkələrinin ritmik yerləşdirilməsi. Konturları göstərməklə natürmortun ümumiləşdirilməsi | 9 |

| | | | |
|---|---|---|---|
| **16** | Keramikaya aid friz-naxışların çəkilməsi. **2-ci mərhələ** | Keramika üzərində friz-naxışın surətinin kağız üzərində çəkilməsi. Xarakterik rəng çalarlarının müəyyənləşdirilməsi. İşıq-kölgə gözləməklə rəng ləkələrinin ritmik yerləşdirilməsi. Konturları göstərməklə natürmortun ümumiləşdirilməsi | 7 |
| **17** | Həndəsi naxış rəsmi. Qarışıq texnika | Həndəsi naxış elementlərinin simmetriya xəttinə əsasən kağız üzərində qurulması. Ahəngdar rəng çalarlarının müəyyən edilməsi. Qarışıq texnika ilə kompozisiyanın işlənilməsi. Kompozisiyanın ümumiləşdirilməsi | 10 |
| **18** | Nəbati naxış rəsmi. Qarışıq texnika | Nəbati naxışın kağız üzərində yerləşdirilməsi və kompozisiya qanunları əsasında qurulması. Uyğun rəng çalarlarının müəyyən edilməsi. Bitki mənşəli kompozisiyanın qarışıq texnika ilə həlli. Kompozisiya üzərində işin tamamlanması və ümumiləşdirilməsi | 3 |
| **19** | Naturadan natürmort rəsmi. **1-ci mərhələ** | Natürmortun qurulması. Onun kağız üzərində yerləşdirilməsi. Natürmorta daxil olan əşyaların rənglərinə uyğun palitranın müəyyən olunması. Nəzərdə tutulmuş rəngkarlıq texnikası ilə natürmortun işlənilməsi. Natürmortun tamamlanması | 9 |
| **20** | Naturadan natürmort rəsmi. **2-ci mərhələ** | Natürmortun qurulması. Onun kağız üzərində yerləşdirilməsi. Natürmorta daxil olan əşyaların rənglərinə uyğun palitranın müəyyən olunması. Nəzərdə tutulmuş rəngkarlıq texnikası ilə natürmortun işlənilməsi. Natürmortun tamamlanması | 8 |
| **21** | İnteryer və eksteryer eskizlərinin rəsmi. Qarışıq texnika. **1-ci mərhələ** | İnteryerin rəsminin perspektiv qanunlarına uyğun qurulması. İnteryerin təyinatından asılı olaraq rəng çalarlarının müəyyən edilməsi. İnsana fizioloji təsirini nəzərə alaraq interyer və eksteryerin rəng tonlarının verilməsi. Detalların işlənməsi. İnteryer və eksteryer rəsmlərinin tamamlanması | 13 |
| **22** | İnteryer və eksteryer eskizlərinin rəsmi. Qarışıq texnika. **2-ci mərhələ** | İnteryerin rəsminin perspektiv qanunlarına uyğun qurulması. İnteryerin təyinatından asılı olaraq rəng çalarlarının müəyyən edilməsi. İnsana fizioloji təsirini nəzərə alaraq interyer və eksteryerin rəng tonlarının verilməsi. Detalların işlənməsi. İnteryer və eksteryer rəsmlərinin tamamlanması | 15 |

| | | | |
|---|---|---|---|
| **23** | Dekorativ ağac və güllərin kompozisiyası. **1-ci mərhələ** | Dekorativ ağac və güllərdən ibarət kompozisiyanın kətan, karton üzərində qələmlə qurulması. Kompozisiyaya uyğun harmonik isti rənglərin seçilməsi. Kompozisiyanın işlənilməsi. Detalların dəqiqliklə işlənilməsi. Ümumi tablonun tamamlanması | 1 |
| **24** | Dekorativ ağac və güllərin kompozisiyası. **2-ci mərhələ** | Dekorativ ağac və güllərdən ibarət kompozisiyanın kətan, karton üzərində qələmlə qurulması. Kompozisiyaya uyğun harmonik isti rənglərin seçilməsi. Kompozisiyanın işlənilməsi. Detalların dəqiqliklə işlənilməsi. Ümumi tablonun tamamlanması | 14 |
| **25** | Dinamik, hərəkətli kompozisiya rəsmi. **1-ci mərhələ** | Dinamik elementli kompozisiyanın kağız üzərində düzgün qurulması. Elementlərin qələmlə dəqiqləşdirilməsi. Kompozisiyanın detallarının harmonik rəng tonları ilə həlli. Ümumi kompozisiyanın rəng işlərinin tamamlanması | 15 |
| **26** | Dinamik, hərəkətli kompozisiya rəsmi. **2-ci mərhələ** | Dinamik elementli kompozisiyanın kağız üzərində düzgün qurulması. Elementlərin qələmlə dəqiqləşdirilməsi. Kompozisiyanın detallarının harmonik rəng tonları ilə həlli. Ümumi kompozisiyanın rəng işlərinin tamamlanması | 5 |
| **27** | Akvarellə nəbati naxışlardan ibarət kompozisiya | Kompozisiya qanunlarını nəzərə almaqla nəbati naxışlardan ibarət kompozisiyanın kağızda kompanovkası. Naxışların yüngül xətlərlə qurulması. Kompozisiyanın akvarellə işlənilməsi. Tablonun tamamlanması | 2 |
| **28** | Dekorativ kompozisiya (soyuq qamma) | Kompozisiya qanunlarını nəzərə almaqla soyuq qammada dekorativ kompozisiyanın kağızda kompanovkası. Yüngül xətlərlə qurulması. Kompozisiyanın akvarellə işlənilməsi. Tablonun tamamlanması | 7 |
| **29** | Dekorativ kompozisiya (isti qamma) | Kompozisiya qanunlarını nəzərə almaqla isti qammada dekorativ kompozisiyanın kağızda kompanovkası. Yüngül xətlərlə qurulması. Kompozisiyanın akvarellə işlənilməsi. Tablonun tamamlanması. | 7 |

| | | | |
|---|---|---|---|
| **30** | Görülmüş işlərə baxış. **Yekun** | Bütün işlərə ümumi baxış | - |
| | **Yekun imtahan** | | |

**Cari qiymətləndirmə**

Dizayn ixtisasıda *qabiliyyət tələb edən fənlər* üzrə cari qiymətləndirmədə - 50 balın 20 balı tələbələrin aktivlik balı (seminar məşğələləri zamanı tapşırıqların icrası əsasında müəyyən edilir) hesabına formalaşdırılır. Qalan 30 bal isə semestr ərzində (hər ay ərzində 2 iş olmaqla) üzrə Əlavədə qeyd olunan qaydada yerinə yetirilən və hər biri 5 balla qiymətləndirilən 6 fərdi işin qiymətləndirilməsi əsasında təmin edilir. Bu halda əlavə bal almaq istəyən tələbələr tərəfindən 7-ci fərdi işin təqdim edilməsinə icazə verilmir.

Qabiliyyət tələb edən fənlər (dizayn ixtisasında) üzrə fərdi iştapşırıqlarının yerinə yetirilməsi

Tələbələrə sillabus üzrə mövzulara uyğun olaraq 6 fərdi iş tapşırılır. Verilən tapşırıqların işləmə qaydaları aşağıdakı kimi müəyyən edilir:

46. Kompanovka - ən əsas və vacib şərt - çəkiləcək əşyaların və yaxud kompozisiyanın vərəqdə düzgün yerləşdirilməsi;
47. Proporsiyaların düzgün təyin edilməsi;
48. Köməkçi xətlərdən istifadə edərək formanın qurulması;
49. Perspektiva qanunlarına uyğun tapşırığın konstruktiv həlli;
50. Kompozisiya qanunlarına riayət edərək tapşırığın tam olaraq konstruktiv həlli;

51. Rəng palitrasının müəyyənləşdirilməsi.
52. Predmetlərin formasının, həcminin və yaxud hər hansı bir kompozisiyanın rənglə işlənməsi:

52.1. Natürmortun rəng həlli:

52.1.1. Əsas rəng tonlarının verilməsi;

52.1.2. Şəxsi və düşən kölgələrin verilməsi;

52.1.3. Predmetlərin formasının işıq-kölgə və rənglə modelləşdirilməsi;

52.1.4. Predmetlərin rənglə fakturasının verilməsi;

52.1.5. Fəzanın rənglə işlənilməsi;

52.1.6. Natürmortun ümumiləşdirilməsi;

52.2. Kompozisiyanın (ornamental, tematik, qrafik, dekorativ və s.) rəng həlli:

52.2.1. Əsas rəng tonlarının verilməsi

52.2.2. Ornamental kompozisiyaların tapşırıqdan asılı olaraq simmetriyaqanunlarına riayət edərək xromatik və yaxud axromatk çalarlarla işlənilməsi;

52.2.3. Dekorativ tapşırıqların xromatik çalarlarla işlənilməsi və kontur xətlərin vurğulayaraq verilməsi

52.2.4. Qrafik işlərin xromatik və yaxud axromatk çalarlarla qrafik üslubda işlənilməsi və kontur xətlərin vurğulayaraq verilməsi;

52.2.5. Tematik tapşırıqların qrizayl (monoxrom) və yaxud xromatik çalarlarla işlənilməsi;

52.2.6. Tapşırığın ümumiləşdirilməsi.

Tapşırıqların yerinə yetirilməsində istifadə olunan material və texnikalar:

1. A3, A2 formatında kağız və yaxud kətan;

2. Sadə qələm, rəngli qələm, rəngli gel qələm, flomaster, rəngli marker, pastel, kömür, sangina, sulu (akvarel, akril, quaş və s.) boya, yağlı boya.

Qarışıq texnikadan istifadə etmək imkanları mövcuddur.

**Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**Dərsə davamiyyət**

Bakalavriat səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**Aralıq qiymətləndirilmə**

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları Aralıq qiymətləndirmə üzrə 50 bal qabiliyyət imtahanı kimi 180 dəqiqə ərzində keçirilən sessiya imtahanın zamanı çəkilən 1 rəsmin qiymətləndirilməsi hesabına təmin edilir. İmtahan nəticələri sistemə aidiyyəti kafedra tərəfindən daxil edilir. Tələbə iştirak etmədikdə "0" (sıfır) bal qeyd olunur. Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya komissiyasına müraciət edə bilər.

**Fənn üzrə yekun qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| İstiqamət | Ballar | Faiz |
|---|---|---|
| Aralıq qiymətləndirmə (final) | 50 | 50 % |
| Seminar (məşğələ) dərslərin nəticələrinə görə aktivlik | 20 | 20 % |
| Tələbələrin fərdi işin qiymətləndirilməsinə görə | 30 | 30% |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**

51-60 bal - "qənaətbəxş" – **E**

61-70 bal - "kafi" – **D**

| | | |
|---|---|---|
| 71-80 bal | - "yaxşı" | – **C** |
| 81-90 bal | - "çox yaxşı" | – **B** |
| 91-100 bal | - "əla" | – **A** |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.